**UDC:** 070,49
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 447
10.33864/2617-751X.2026.v9.i1.344-355

# FORMATION AND DEVELOPMENT OF RENAISSANCE HUMANISM

**Malahat Mammadova***

**Abstract.** Renaissance humanism placed the value of the human being and the interests of the individual at the forefront. As a result, the problem of man became the main subject of philosophical discussion, while reason and experience formed the foundation of Renaissance philosophy. Renaissance philosophy succeeded in challenging the authority of the Middle Ages and creating a new, free worldview. Since the doctrines promoted by the Church could no longer satisfy people, there arose a need for an approach that would diminish the Church’s influence and place the human being at the center. Although such changes began to manifest in various regions, it is generally accepted that their origins lie in Italy. Influenced by ancient traditions, the primary focus of Renaissance philosophy became the problem of man. In the 14th century, translations of ancient works were carried out, and discussions and debates were held about them. In this sense, humanism, in a narrow meaning, referred to philological innovations based on the study of ancient literature. The philosophical essence of Renaissance humanism was reflected in its emphasis on individualism, reason (rationality), and the humanities. Humanists believed that each individual is unique and possesses the power to shape their own destiny. Despite certain shortcomings, humanism as a whole represented a system of thought that emphasized the importance of studying the spiritual world of the human being and approached the individual from the perspective of their natural essence. Renaissance humanism had a profound influence on subsequent philosophical movements, leaving a distinctive mark on their development.

**Keywords:** humanism, renaissance, human, philosophy, worldview

---

* Doctoral Student Department of Philosophy, Baku State University; Baku, Azerbaijan
E-mail: mila-mamedova@inbox.ru
https://orcid.org/0000-0002-6875-6483

**To cite this article:** Mammadova, M. [2026]. FORMATION AND DEVELOPMENT OF RENAISSANCE HUMANISM. *“Metafizika” journal, 9*(1), pp.344-355.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.344-355
***Article history:***
**Received**: 04.12.2025 **Revised**: 09.01.2026 **Accepted**: 02.02.2026 **Published**: 15.03.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070,49
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 е)64
**MJ №** 447
10.33864/2617-751X.2026.v9.i1.344-355

# ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ ГУМАНИЗМА ЭПОХИ ВОЗРОЖДЕНИЯ

**Малахат Мамедова***

**Абстракт.** Гуманизм эпохи Возрождения выдвинул на первый план ценность человека и интересы личности. В результате проблема человека стала главным объектом философских размышлений, а разум и опыт легли в основу философии Возрождения. Философия Возрождения сумела поколебать авторитет Средневековья и создать новое, свободное мировоззрение. Учения, продвигаемые церковью, уже не удовлетворяли людей, поэтому возникла потребность в подходе, который уменьшал бы влияние церкви и ставил человека в центр внимания. Хотя подобные изменения начали проявляться в разных местах, считается, что их истоки заложены в Италии. Под влиянием античных традиций основным предметом размышлений философии Возрождения стала проблема человека. В XIV веке переводились произведения античных авторов, велись дискуссии и обсуждения, посвящённые им. В этом смысле гуманизм в узком значении обозначал филологические новшества, основанные на изучении античной литературы. Философская сущность гуманизма эпохи Возрождения проявлялась в его внимании к индивидуализму, разуму (рациональности) и гуманитарным наукам. Гуманисты верили, что каждый человек уникален и обладает способностью формировать свою собственную судьбу. Несмотря на отдельные недостатки, гуманизм в целом представлял собой систему взглядов, подчёркивающую важность изучения духовного мира человека и рассматривающую личность, исходя из её естественной сущности. Гуманизм эпохи Возрождения оказал значительное влияние на последующие философские направления, оставив в них свой уникальный след.

**Ключевые слова:** гуманизм, возрождение, философия, мировоззрение

---

* Докторант кафедры философии Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: mila-mamedova@inbox.ru
https://orcid.org/0000-0002-6875-6483

**Цитировать статью:** Мамедова, М. [2026]. ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ ГУМАНИЗМА ЭПОХИ ВОЗРОЖДЕНИЯ. *Журнал «Metafizika», 9*(1), с.344-355.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.344-355
***История статьи:***
**Поступила**: 04.12.2025 **Переработана**: 09.01.2026 **Принята**: 02.02.2026 **Опубликована**: 15.03.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070,49
**KBT:** 63.3(2)6-6
**MJ №** 447
10.33864/2617-751X.2026.v9.i1.344-355

# İNTİBAH DÖVRÜNDƏ HUMANZİM İDEYALARININ FORMALAŞMASI VƏ İNKİŞAFI

**Məlahət Məmmədova***

**Abstrakt.** İntibah humanizmi insanın dəyərini və fərdin maraqlarını ön plana çəkmişdir. Nəticədə, insan problemi ən vacib müzakirə obyektinə çevrilmiş, ağla və təcrübəyə əsaslanan baxışlar İntibah fəlsəfəsinin əsasını təşkil etmişdir. İntibah fəlsəfəsi orta əsrlər nüfuzunu yıxmağı bacarmış, azad bir dünyagörüşü yaratmışdır. Kilsənin irəli sürdüyü baxışlar insanları təmin edə bilmədiyi üçün kilsənin nüfuzunu azaldacaq və insanı mərkəzə qoyacaq bir yanaşmaya ehtiyac yaranmışdı. Bu dəyişiklik bəzi yerlərdə özünü göstərməyə başlasa da, ilk olaraq İtaliyada başlandığı qəbul olunur. İntibah fəlsəfəsinin antik ənənələrdən təsirlənərək diqqət yetirdiyi əsas məsələ insan problemi olmuşdur. XIV əsrdə antik dövr əsərlərinin tərcümələri edilir, onlarla bağlı müzakirələr və diskussiyalar aparılırdı. Bu mənada, humanizm məhdud mənada antik ədəbiyyat əsasında aparılan filoloji yeniliklərə verilən ad olmuşdur. Renessans humanizminin fəlsəfi mahiyyəti onun fərdiyyətçiliyə, zəkaya (rasionallığa) və humanitar elmlərə verdiyi əhəmiyyətdə görünür. Humanistlər hər bir fərdin unikal olduğuna və öz taleyini formalaşdırmaq gücünə malik olduğuna inanırdılar. Bəzi çatışmayan tərəflərinin də olmasına baxmayaraq, ümumilikdə, insanın mənəvi dünyasının öyrənilməsinin vacibliyini vurğulayan, insanı öz təbii mahiyyətindən çıxış edərək tədqiq edən baxışlar sistemi olmuşdur. İntibah humanizmi özündən sonrakı fəlsəfi yanaşmalarda da özünəməxsus şəkildə izlər buraxmışdır.

**Açar sözlər:** humanizm, intibah, insan, fəlsəfə, dünyagörüşü

* Bakı Dövlət Universiteti, Fəlsəfə kafedrasının doktorantı; Bakı, Azərbaycan
E-mail: mila-mamedova@inbox.ru
https://orcid.org/0000-0002-6875-6483
**Məqaləyə istinad:** Məmmədova, M. [2026]. İNTİBAH DÖVRÜNDƏ HUMANZİM İDEYALARININ FORMALAŞMASI VƏ İNKİŞAFI. *“Metafizika” jurnalı, 9*(1), səh.344-355.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.344-355
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 04.12.2025 **Yenidən baxılıb**: 09.01.2026 **Təsdiqlənib**: 02.02.2026 **Dərc olunub**: 15.03.2026
**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Orta əsrlərin sonu və Yeni dövrün başlanğıcı, kilsənin insanı günahkar və dəyərsiz bir varlıq kimi təqdim etdiyi dünyagörüşünə qarşı yeni baxışlar sisteminin ortaya çıxması ilə xarakterizə olunur. Məhz bu mərhələdə humanizm insanın dəyərini, ləyaqətini və potensialını önə çıxaran fundamental bir fəlsəfi cərəyana çevrildi. O, Avropa İntibahının əsas ideologiyasını və nəzəri bünövrəsini təşkil etmişdir. İntibah fəlsəfəsi təxminən 200 illik bir dövrü, yəni Orta əsrlər ilə Yeni dövr arasındakı keçidi əhatə etdiyi üçün onu bir keçid fəlsəfəsi kimi də dəyərləndirmək olar. Bu keçid xarakteri, bir tərəfdən orta əsrlərin təsirinin müəyyən dərəcədə davam etməsi, digər tərəfdən isə Yeni dövrün "yenidən doğuş" (Renessans) ideyasını özündə ehtiva etməsi ilə əlaqədardır. Bu istiqamətdə, qədim yunan-roma mədəniyyətinin dirçəldilməsi ilə bağlı fəlsəfi və mədəni transformasiyalar mühüm rol oynamışdır.

### 1.1.Tədqiqatın məqsədi

Məqalənin əsas məqsədi İntibah dövrünün əsas inkişaf xüsusiyyətlərini təsvir etmək və bu dövr mütəfəkkirlərinin humanizmlə bağlı yanaşmalarına diqqət çəkməkdir.

### 1.2.Tədqiqatın metodologiyası

Məqalə hazırlanarkən tarixi-təhlil, sistemli yanaşma metodundan istifadə olunmuşdur.

## 2.Əsas hissə

Artıq qeyd olunduğu kimi, humanizm anlayışı antik humanitas (insan təbiəti, mənəvi mədəniyyət) və İntibah humanista sözlərindən yaranmışdır. Xüsusən də, Siseronun adıyla bağlı olan "studia humanitatis" termini Roma torpağında yunan təhsilinin dirçəldilməsini ifadə edirdi. İntibah mütəfəkkirləri bu terminə daha geniş məna verdilər, yəni yunan və latın ənənələrinə yeni çalarlar qataraq, antik mədəniyyətin bütün zənginliklərini mənimsəməyi hədəflədilər. Bu, sadəcə təhsil sisteminin bərpası deyil, həm də insan potensialının və biliyinin genişləndirilməsinə yönəlmiş bir hərəkat idi.

Ümumilikdə "klassik humanizm" kimi tanınan İntibah və ya Renessans humanizmi XV-XVI əsrlərdə sxolastik fəlsəfəyə qarşı çıxan güclü bir düşüncə sistemi olmuşdur. Bu dövrdə İntibah humanizmi insanın dəyərini və fərdin maraqlarını ön plana çəkmişdir. Nəticədə, insan problemi ən vacib müzakirə obyektinə çevrilmiş, ağla və təcrübəyə əsaslanan baxışlar İntibah fəlsəfəsinin əsasını təşkil etmişdir. Sxolastik baxışlara qarşı formalaşan İntibah humanizmi, bu dünyada insanın, hər şeyin ən yaxşısına layiq olduğunu önə çəkir. Dini məhdudiyyətlərə qarşı çıxaraq, inanc əvəzinə ağla üstünlük verməyi əsas sayırdılar ki, bu da elmin, rasional düşüncənin inkişafına yol açmışdır.

Orhan Hançerlioğlu (1976) İntibah humanizmini eyni zamanda, burjua humanizmi adlandırmışdır [s.106]. Bu tərif, yeni yaranan burjua sinfinin dəyərləri ilə humanizmin idealları arasındakı əlaqəyə işarə edir. İnsan haqlarını

üstün sayan və inkişaf etməsi üçün çalışan İntibah humanizmi, orta əsrlərin insanlığını itirməkdə olan insanını çəkib, işıqlı günlərə gətirməyi qarşısına məqsəd qoyurdu.

Erix Fromm "Humanizm" ilə "Renesans" arasındakı əlaqəyə toxunaraq, humanizmin 2500 illik tarixi olan, Şərq dünyasının peyğəmbərləri və buddist ənənələri ilə başlayan bəşəri insan fəlsəfəsi olduğunu vurğulayır [Fromm, 1987, s.57]. Cemil Meriç isə intibah humanizmini antik yunan ənənələrinə bağlılıq və "insanlıq dini" olmaqla iki əsas mənasına diqqət çəkir. Bu, humanizmin həm tarixi, həm də mənəvi-fəlsəfi ölçüsünü göstərir [Meriç, 1998, s.86-87].

İntibah dövründəki yenilənmə və elmi hərəkatlar sayəsində xristianlıq və kilsə öz nüfuzunu itirməyə başladı. Sənət, fəlsəfə və elm beləcə dinin hegemonluğundan çıxaraq ağlın yoluna daxil oldu [Taşkın & Becermen, 2013, s.16-17]. Bu dövrdə filosoflar dünyanı anlamağa və insanın dəyərini diqqətə çatdırmağa çalışarkən, elm adamları da bu düşüncələri praktik tədqiqatlar səviyyəsinə gətirən alətlər icad etdilər. Bu yeniliklər insanı dünyada hegemon olma düşüncəsinə gətirib çıxardı [Brotton, 2006, s.16].

Bu dövrdə yaradılan sənət nümunələrində də insan fiqurları fiziki xüsusiyyətləri və duyğuları ifadə etməsi ilə insan məsələsini daha da qabartmışdır. Həm insan, həm də insan görünüşündəki tanrı heykəlləri ideal insan axtarışı ilə hazırlanmışdır. Məsələn, Mikelancelo tərəfindən yaradılan Davud heykəlini misal göstərmək olar. Fiziki gücü ilə deyil, ağlı və özünə inamı ilə Qoliathı məğlub edən Davud, insanın üstünlüyünü və daxili gücünü nümayiş etdirir [Şenyapılı, 2017, s.22-31]. Bu dövr rəssamlarının əsərlərində də insanın fiziki və mənəvi tərəflərinə olan diqqət özünü göstərmişdir. Bu fəaliyyətlər əsasında canlandırılan ən əsas anlayışlardan biri isə insan azadlığı idi. Bununla bağlı olaraq əsas üzərində dayanılan məsələ insanın azad bir varlıq olduğundan, həyatı və davranışları üçün özünün məsuliyyət daşıması idi [Akyürek, 1994, s.120]. Humanist düşüncəyə görə, azad bir cəmiyyətdə insan həqiqi mənliyini tapa bilər; azadlıq yox olduqca insan da özünə qapanır. Onlar hesab edirdilər ki, insan xoşbəxt yaşaması üçün bütün keyfiyyətlərə malikdir və hər hansı vasitə olmadan öz xoşbəxtliyini reallaşdıra bilər.

Bütöv İntibah mədəniyyətində olduğu kimi, bu dövr fəlsəfəsinin də əsas məqsədi özünü hər cür "asılılıqdan qurtarmaq", ancaq özünə arxalanmaq, özünü axtarıb tapmaq idi [Günay, 2003, s.55]. İntibah fəlsəfəsi orta əsrlər nüfuzunu yıxmağı bacarmış, azad bir dünyagörüşü yaratmışdır. Kilsənin irəli sürdüyü baxışlar insanları təmin edə bilmədiyi üçün kilsənin nüfuzunu azaldacaq və insanı mərkəzə qoyacaq bir yanaşmaya ehtiyac yaranmışdı. Bu dəyişiklik bəzi yerlərdə özünü göstərməyə başlasa da, ilk olaraq İtaliyada başlandığı qəbul olunur. Antik dövr mədəniyyətinin tərkib hissəsi olan insana dönüş XIV və XV əsrlərdə sürətlə yayılmağa başlamışdır. İntibah

mütəfəkkirləri antik yunan ənənələri ilə xristianlıq arasında bağlılıq axtararaq yeni bir düşüncə, yeni bir həyat tərzi, yeni bir dünya yaratmağa çalışmışlar. Antik dövr ideallarını yenidən canlandıraraq, insanın hansısa bir dindən asılı olmamasını, azad bir fərd kimi yaşamasını arzulamışlar. Onlara görə, insan sxolastika dövrdə ruhən çətinliklər yaşamış,öz "inancları" ilə özünəməxsusluğunu və azadlığını itirmişdir. İnsan, sanki itirdiyini yenidən qaytarmaq üçün İntibah dövrünün insanı mərkəzə qoyan baxışlarına ehtiyac duymuşdur.

İntibah fəlsəfəsi insanın özünü və dünyanı kəşf etməsi kimi də xarakterizə oluna bilər. İnsan ağlıyla və şəxsi təcrübələri ilə həm özünü, həm də təbiəti anlamağa çalışır.

İntibah fəlsəfəsinin antik ənənələrdən təsirlənərək diqqət yetirdiyi əsas məsələ insan problemi olmuşdur. XIV əsrdə antik dövr əsərlərinin tərcümələri edilir, onlarla bağlı müzakirələr və diskussiyalar aparılırdı. Bu mənada, humanizm məhdud mənada antik ədəbiyyat əsasında aparılan filoloji yeniliklərə verilən ad olmuşdur.

Əlbəttə ki, bu, humanizmin başlanğıc dövrüdür, çünki humanizm filoloji sahə ilə məhdudlaşmamışdır. O, "yeni həyat axtarışını və duyğusunu" ifadə edən daha geniş bir anlayışdır. Burada nəzərdə tutulan yeni həyat axtarışı dindən asılı olmayan bir mədəniyyət qurmaq, insan ilə dünya arasında yeni fəlsəfi əlaqə yaratmaqdır. İntibah dövrünün ideoloji əsası, insanın öz sosial mənşəyindən asılı olmayaraq, şəxsiyyət kimi qalmasıdır. Humanistlər, zirvəyə insan ağlını, iradəsini və şəxsi keyfiyyətlərini qoyurdular. Onlar yaradan insanı ideal insan sayırdılar. Eyni zamanda vurğulayırdılar ki, insanın imkanları sonsuzdur. İnsan "ölümlü Tanrı"dır; yəni öz taleyinin qurucusudur.

Tarixə nəzər salsaq, Orta əsr insanının konkret bir mahiyyəti yoxdur. O, sanki din mərkəzli ümumi sistemin içərisində yox olmuş, "statik" insana çevrilmişdir. Orta əsrlərdə insan "Mən kiməm?", "Nəyəm?", "Nə olacağam?" kimi fundamental suallar verə bilmirdi, çünki onun həyatı dini doktrinalarla tamamilə müəyyən edilmişdi. İntibah dövrü isə individualizm dövrüdür. Yəni burada təkcə insan deyil, eyni zamanda insan qrupları da ön plana çəkilir. Xalq anlayışı məhz bu zaman formalaşmışdır. Xalqlar öz milli mənliklərini, dillərini, düşüncələrini, siyasi fəaliyyətlərini inkişaf etdirməyə başlamışlar. Qeyd edə bilərik ki, humanizm məhz xalq mədəniyyəti fonunda yaranmışdır. İnsanı müxtəlif tərəflərdən izah etməyə çalışan humanizm, həqiqi insanı tapmağı qarşıya məqsəd qoyur.

Renessans humanizminin fəlsəfi mahiyyəti onun fərdiyyətçiliyə, zəkaya (rasionallığa) və humanitar elmlərə verdiyi əhəmiyyətdə görünür. Humanistlər hər bir fərdin unikal olduğuna və öz taleyini formalaşdırmaq gücünə malik olduğuna inanırdılar. Onlar tənqidi düşüncənin gücünə inanır, kor-koranə imanı və xurafatı rədd edirdilər. Tarix, ədəbiyyat və fəlsəfə kimi humanitar

elmlər isə insan təcrübəsini anlamaq və empatiya inkişaf etdirmək üçün vacib sayılırdı. Lorenzo Valla kimi bəzi humanistlər Sokratın tək fəzilət mövqeyindən imtina edib, dünyəvi ləzzətləri müsbət qiymətləndirirdilər. Rotterdamlı Erazm isə "Axmaqlığın tərifi" əsərində emosiyalardan məhrum, kamil müdriki satirik şəkildə təsvir edərək, insanın qüsurlu və zəif cəhətlərini də qəbul edirdi. Bu dövrün filosofları insanın kosmik iyerarxiyada yerini yenidən təyin etməyə çalışırdılar. Məsələn, Paracelsus və Cordan Brüno insana ilahi qüvvə bəxş edirdilər. Humanistlərin dünyagörüşü antroposentrizm üzərində qurulmuşdu; insanın yaradıcı qabiliyyətləri onu Tanrıya bənzər bir varlıq kimi mərkəzə qoyurdu. Humanizmin irsi sonrakı əsrlərdə sekulyar individualizm kimi davam etdi, xoşbəxtlik hüququnu və özünüreallaşdırma fikri ön plana çəkildi. Bu ideya liberalizmin və müasir insan hüquqları konsepsiyalarının əsası da sayıla bilər.

İtalyan şairi Françesko Petrarka "humanizmin atası", bəzən də "qurucusu" sayılır. Petrarka Orta əsrlər dövrünü "qaranlıq dövr" adlandırırdı. Antik dövr isə, əksinə, mədəni inkişaf baxımından işıqlı dövr hesab olunurdu. Petrarkaya görə, fəzilətli olmaq Orta əsr düşüncəsinin, xüsusən də Avqustinin vurğuladığı kimi yalnız əxlaqi bir tərəf və ya xristianlığa aid bir anlayış deyil. Fəzilətli olmaq insanın həyatda öz izlərini qoyması, aktiv fəaliyyəti ilə özünü reallaşdırmasıdır. Onun düşüncələrində də iki tərəf – dünyəvi və mənəvi olanlar yer almışdır, lakin dünya və insanla bağlı araşdırmalara daha çox üstünlük vermişdir. Petrarka öz baxışlarını belə açıqlayırdı: "Tanrı kimi olmağı və ya sonsuzluğa çatmağı və ya cənnət və cəhənnəmi qucaqlamağı düşünmürəm. İnsanların sahib olduğu gözəlliklər mənə yetər. Fani (mən) ancaq fani nemətlər istəyir" [Alatlı, 2014, s.428].

Öz "mən"ini müəyyən etmək Petrarkanın baxışlarının təməlidir. Petrarka fəlsəfənin nəzəri tərəfləri ilə maraqlanmırdı. Onun üçün əsas olan əxlaq məsələsidir. O, stoiklərin baxışlarını özünə əsas seçmişdir. Ona görə, insan həyatında ən önəmli olan xoşbəxtlikdir. Xoşbəxtliyi təmin edən şey isə daxili və xarici təsirlərdən müstəqil olmağı bacaran ruhun azad olmasıdır. Ümumiyyətlə, tarixi prosesin gedişatına nəzər salanda azadlığın bütün humanistlərin əsas anlayışı olduğunu görürük. İnsan yalnız bir duyğunun təsiri altında yaşaya bilməz, o, daim bir çox duyğunun təsiri altındadır.

Onun humanizminə görə, insan həm dini inancı, həm də dünyəvi tərəfləri ilə qəbul olunmalıdır. Petrarka hesab edir ki, insanların yaratdığı mədəniyyət ilə müxtəlif insanlar arasında əlaqə yaratmaq mümkündür. Və bu, zaman, məkan məhdudiyyətləri olmadan baş verəcək. Petrarkanın XIV əsrdə irəli sürdüyü baxışlar, XVII və XVIII əsr Qərb fəlsəfəsinə mühüm təsir göstərmişdir O, öz əsərlərində insanın istəsə çox şeylər edə biləcəyinə diqqət yönəldir. İnsandakı tanrısallığı yaratma gücü və insanlığa yönəlmiş sonsuz mərhəmət duyğusuyla izah etməyə çalışır. Ona tanrısallıq xüsusiyyəti verənin ağıl olduğunu

vurğulayırdı. İnsandakı bu xüsusiyyətlər onun Tanrı ilə bağlarını qoparan amillər deyil, əksinə, insanın daxili gücünü göstərən amillərdir. Bunun səbəbi insan ilə Tanrının fərqli təbiətlərə malik olmasıdır. Petrarka ilə başlayan insana yönəlmiş baxışlar İntibah boyunca bütün sahələrdə özünü göstərmişdir. Bu mənada, Covanni Bokkacionun "Dekameron"unu qeyd edə bilərik. Yunan-Roma mədəniyyətini çox gözəl bilən Bokaccio, kilsənin istismarını bütün detalları ilə təsvir etmişdir. Hətta bir qədər də irəli gedərək, ibtidai dinlər ilə xristianlığı bir saymış və beləliklə, dinlərin ümumi mahiyyətdə olduğunu diqqətə çatdırmağa çalışmışdır. O, əsərlərində orta və varlı sinfə mənsub insanların həyatlarını və savadsızlıqlarını sekulyar yanaşma ilə izah etməyə çalışmışdır.

İntibah dövrünün görkəmli mütəfəkkirlərindən biri də Aligiyeri Dante idi. Dantenin yaradıcılığındakı bir çox etik məsələlər insan haqqında humanist yanaşmalarla üst-üstə düşürdü. O, insanın mənən paklaşaraq təkcə ilahi sevgiyə deyil, bəşəri sevgiyə də çatacağını qeyd edirdi. Ona görə, sevgilisi Beatrisə olan məhəbbəti ən ali xeyrin arxasınca getməyə bərabərdir. "Yeni həyat" əsərində etdiyi mənəvi yenilənmə çağırışı bütün bəşəriyyətə ünvanlanmışdır: o, sevginin dirilişini cəmiyyətin yenilənməsi ilə sıx əlaqədə götürürdü. Dante papanın teokratik hökmranlığına qarşı çıxaraq çatdırmağa çalışırdı ki, imperiyanın idarəsi heç də kilsədən asılı deyil [Dante, 1968, s.310-312]. O, səmavi səadəti önəmsəmirdi, eyni zamanda, Tanrının nüfuzunu insan həyatından təcrid edirdi. Göstərirdi ki, dünya insan fəaliyyətinin meydanına çevrilməlidir və bu, teologiya ilə deyil, fəlsəfə ilə, papa ilə deyil, monarxla bağlıdır. Dantenin baxışlarındakı monarx ideyası bəşəriyyətin inkişafını, ədalət və azadlığı bərqərar etmək üçün nəzərdə tutulmuşdur. Onun etik təlimdə antik dövr ənənələri də özünü göstərmişdir: insanı əxlaqi kamilliyə və dünyəvi səadətə çatdırmaq və bununla da teologiyanın əsarətindən qurtulmaq. O, insanın dünyəvi mahiyyətinin və təbiətinin izahını verməyə çalışmışdır. O, Aristotelin "bütün insanlar təbiətən biliyə meyl edir" tezisini izah edərək vurğulayırdı ki, bilik ruhumuzun ən yüksək kamilliyi və xoşbəxtliyimizin mənbəyi olduğundan, öz ilkin mənşəyinə maraqlı olan hər bir fərd təbii olaraq ona can atır [Dante, 1968, s.112]. Elmə olan meyl təbiidir, onun məqsədi müdriklikdir, insan səadətidir. İnsan şüurunun imkanları təbiətin özü tərəfindən yaradılır.

Humanizmin inkişafında digər mütəfəkkir K. Salutati də qeyd edilə bilər. O, gəlirinin böyük hissəsini antik əsərləri öyrənməyə və araşdırmağa sərf etmişdir. Ən böyük işi isə Siseronun məktublarını üzə çıxarması olmuşdur ki, bu da antik irsin bərpasına mühüm töhfə vermişdir.

Görkəmli İntibah humanistlərindən biri də Erazmdır. İnsançılıq cərəyanının ən böyük nümayəndəsi kimi qəbul olunan Erazm da kilsənin hegemonluğuna qarşı olmuşdur. Həmçinin vurğulayırdı ki, humanist olmağı onun dini inancına

mane olmayacaqdır. O, xristian qanunlarını antik yunan sadəliyi ilə birləşdirməyə çalışmışdır. Onun üçün vacib olan daxili dindarlıq və əxlaqdır.

Bu dövrün önəmli adlarından biri Tomas Mordur. Antik baxışlara və xüsusən də Platona istinad edən Tomas Mor, yazdığı "Utopiya" adlı əsərində Platonun ideal dövlətinə bənzər bir dövlət təsvir etmişdir. Bu əsərlə o, həm də müxtəlif siniflərdən ibarət, lakin bərabərliyin hökm sürdüyü bir cəmiyyət göstərmişdir. İnsanların bərabərliyi məsələsini önə çıxarmışdır. Həm fərdi, həm də ictimai inkişafı ön plana çəkmişdir.

İnsanın mahiyyətinin araşdıran mütəfəkkirlərdən biri də Nikolo Makiavelli olmuşdur. O da kilsənin təsirindən çıxmağı əsas məqsəd sayır, əsərlərində insanın mahiyyətinin üzə çıxa bilməsi üçün necə bir azadlıq lazım olduğunu göstərir və insanın özünə, zəkasına arxalanaraq heç nədən asılı olmayan bir dünya mədəniyyəti qurmağa çalışırdı. Makiavelli hesab edirdi ki, bütün insanların ümumi bir məqsədi vardır: öz maraqlarını təmin etmək və varlı olmaq. İnsanın ağıllı olması və ya olmaması, fəzilətli olub olmaması, elmli olub olmaması bunu dəyişdirmir. Bu məqsədlərə çatmaq üçün hər kəsin şəraiti fərqli olduğu üçün istifadə edəcəyi yol da, vasitə də fərqli olur. Ona görə, insanın xarakteri zamana və məkana görə dəyişir, dəyişməlidir də. Makiavelli qeyd edirdi ki, yeni insan azaddır və bir növ deyil, artıq şəxsiyyətdir. Etik və dini baxımdan azad, öz maraqlarına görə hərəkət edən fərdlərin və ya qrupların formalaşması cəmiyyət həyatı üçün də münaqişələrin baş verməsinə səbəb olmuşdur. Bu cəmiyyət və siyasət anlayışı digər mütəfəkkirləri də cəlb etmiş və insanlıq problemi olaraq bu günümüzə qədər gəlib çatmışdır [Özcan, 2016, s.172-180]. "Müasir" insanın formalaşmasında ən önəmli məsələ, təkcə ağla üstünlük vermək, dini tərəfləri həyatdan çıxarmaq deyil, eyni zamanda "təbiət" anlayışındakı dəyişiklik olmuşdur.

Bu dəyişiklik Mişel de Montenin baxışlarında da özünü göstərmişdir. O hesab edirdi ki, insanlar xaricdəki deyil, öz içlərindəki qanunlara tabe olub yaşamalıdırlar. Bu xarici qanunların dini, fəlsəfi və ya elmi xarakter daşıması önəmli deyildir; hər birinə şübhə ilə yanaşmalıyıq. Monten vurğulayırdı ki, insanı konkret bir standartla, hər yerdə, həmişə eyni olaraq müəyyənləşdirməyə çalışmaq yanlışdır. Çünki insan davamlı olaraq dəyişən bir varlıqdır. Bir insanın daxilinə baxılarsa, onun ikinci dəfə eyni olduğunu görmək olmaz. İnsan hər cür xaosu daxilində saxlayan bir varlıqdır [Montaigne, 2019, s.23]. O düşünürdü ki, heyvanlar qanunlar olmadan gözəl bir həyat yaşayır, təhsil almamış, cahil saydığımız bir insan universitetdəki müəllimdən daha bilikli ola bilər. Göründüyü kimi, insan olmaq hər bir insan üçün mümkündür və Aristoteldə olduğu kimi buna təbii fəzilətlərlə çatmaq olar. Bilikli olmaq isə çox bilik sahibi olmaq deyil, həyatında faydalı və gərəkli olduğu qədər biliyə sahib olmağa çalışmaqdır. Montenə görə, insanlar qanunlar qoyaraq, dəyərlər yaradaraq, ictimai qaydalar tətbiq edərək, hətta elm və

fəlsəfədən həddindən çox istifadə edərək öz həyatlarını çətinləşdirirlər. Montenin təbii həyat dedikdə nəzərdə tutduğu, təbii istək və arzulara uyğun yaşamaqdır. Müasir dövrümüzdə "*özün üçün yaşa, hər kəs bərabərdir*" baxışının kökləri də bu dövr ilə bağlıdır demək olar.

Mişel de Monten də insanın hər şeydən öncə öz "mən"inə diqqət yetirməsini, öz "mən"inin həm fiziki, həm də metafizik mahiyyətdə olduğunu göstərməyə çalışmışdır. O düşünürdü ki, insanı müəyyən etmək üçün təbiətə uyğun həyat tərzinə üstünlük vermək lazımdır. Duyğularımız da təbiətdədir. Onların ağılla idarə olunmasını düşünürdü. İnsanı öz daxilindən öyrənməyə çalışan Monten hər cür doqmatizmə qarşı çıxırdı. Düşüncələrində skeptisizmə yaxınlıq olmuşdur. Bu xüsusiyyəti ilə o, İntibah dövrünün ilk tənqidçisi sayıla bilər. İntibah dövründə antik dövr ənənələrindən biri olan skeptisizmin qabardılmasında məhz Montenin rolu olmuşdur. Onun düşüncəsində şübhə, konkret bir həqiqətə bağlanmamaqdan, real bir həqiqətin olmamasına inanmaqdan, buna baxmayaraq, yenə də həqiqəti axtarmaqdan başqa bir şey deyildi.

**3.Nəticə**

Beləliklə, intibah dövrü, humanistik dünyagörüşünün əsas xarakteristikası bunlar olmuşdur:

- İnsan tələbatlarına diqqət. Humanist filosoflar insanın xarici görünüşünü və daxili mahiyyətini öyrənərək antik dövr klassiklərinin təlimlərini də anlamış oldular.
- Fərdilik kultunun inkişafı. Bu, insanın inkişaf etməsini, savadlanmasını ehtiva edirdi. Bunun ən əsas təsvir yolu ədəbiyyat (poeziya) idi. Fərdin özünü ifadə etməsi və bənzərsizliyinin qeyd edilməsi bu dövrün əsas xüsusiyyətlərindən idi.
- Fəlsəfi sistemin yenilənməsi. Humanist filosoflar orta əsr müdriklərinin teoloji-fəlsəfi "əsaslandırma"larını inkar edirdilər. Onlar insanın davranışına, nitqinə diqqət yetirməklə onu tədqiq etməyə və öyrənməyə çalışırdılar.
- Humanizm dəyərlərinin universallığı. Humanist filosoflar sinfi sərhədləri keçərək bəşəri dəyərlərin bütün insanlıq üçün olduğunu bəyan edirdilər. Bu, insanın ləyaqətinin universal olduğunu vurğulayırdı.
- Teosentrizmin antroposentrizmlə əvəz olunması: Yəni, Tanrının mərkəzdə olduğu düşüncə sistemindən insanın mərkəzə qoyulduğu düşüncəyə keçid.
- Klassik əsərlərə maraq: Antik Yunan və Roma dövrünün ədəbiyyatı, fəlsəfəsi və incəsənətinə böyük maraq.
- Elm sahələrinin inkişafı: Fəlsəfə, ritorika, tarix və ədəbiyyat kimi elmlər və bilik sahələri inkişaf etdirilmişdir.

- Orta əsrlər və onun hakim qayda və dəyərlərindən uzaqlaşma: Bu, dünyəvi həyatın ön plana çıxarılması və dini doqmatizmdən azad olma meylləri idi.
- Elmin daha da inkişaf etdirilməsi: Təcrübəyə və müşahidəyə əsaslanan elmi metodların tətbiqi.

Tarixi prosesin inkişaf gedişatına nəzər salanda "İntibah humanizmi yaratmışdır, yoxsa humanizm İntibahı?" sualı ortaya çıxır. Görünən odur ki, hər iki tərəf bir-birini şərtləndirmişdir. Humanizm, transsendental olanla mübarizə aparan bir baxış olaraq insanı öz-özünə yetən bir varlıq kimi qəbul edir. Təbiəti elmi, rasional yollarla izah etməklə, insan və təbiət üzərində Tanrının nüfuzunu da heçə endirməyə çalışmışlar.

Artıq qeyd edildiyi kimi, İntibah humanizmi insanın öyrənilməsi, insana dair məsələlərin önə çəkilməsi ilə yadda qalmışdır. Bəzi çatışmayan tərəflərinin də olmasına baxmayaraq, ümumilikdə, insanın mənəvi dünyasının öyrənilməsinin vacibliyini vurğulayan, insanı öz təbii mahiyyətindən çıxış edərək tədqiq edən baxışlar sistemi olmuşdur. İntibah humanizmi özündən sonrakı fəlsəfi yanaşmalarda da özünəməxsus şəkildə izlər buraxmışdır.

## 4.ƏDƏBİYYAT


1. Akyürek, H. (1994). *İnsanın özgürlüğü ve hümanizm anlayışı*. İstanbul: Remzi Kitabevi.
2. Alatlı, A. (2014). *Batı'ya yön veren metinler* (Cilt 1). İstanbul: Alfa Yayınları.
3. Brotton, J. (2006). *The Renaissance: A very short introduction*. Oxford: Oxford University Press.
4. Dante, A. (1968). *İlahi Komediya* (Tərc. H. C. Snell). London: Penguin Classics.
5. Fromm, E. (1987). *Humanism and Marx's concept of man*. New York: Continuum.
6. Günay, D. (2003). *Rönesans felsefesi ve insan anlayışı*. İstanbul: Dergâh Yayınları.
7. Hançerlioğlu, O. (1976). *Felsefe sözlüğü*. İstanbul: Remzi Kitabevi.
8. Meriç, C. (1998). *Bu ülke*. İstanbul: İletişim Yayınları.
9. Montaigne, M. de. (2019). *Denemeler* (Tərc. S.Eyuboğlu). İstanbul: Can Yayınları.
10. Özcan, A. (2016). *Machiavelli'de insan ve toplum anlayışı*. Ankara: Nobel Yayıncılık.
11. Şenyapılı, T. (2017). *Rönesans sanatı ve insan imgesi*. Ankara: Kültür Yayınları.
12. Taşkın, T., & Becermen, M. (2013). *Rönesans düşüncesi ve hümanizm*. İstanbul: Beta

## REFERENCES

1. Akyurek, H. (1994). *Human freedom and the concept of humanism*. Istanbul: Remzi Kitabevi. (in Turkish)
2. Alatli, A. (2014). *Texts that shaped the West* (Vol. 1). Istanbul: Alfa Yayinlari. (in Turkish)
3. Brotton, J. (2006). *The Renaissance: A very short introduction*. Oxford: Oxford University Press. (in English)
4. Dante, A. (1968). *The Divine Comedy* (Trans. H. C. Snell). London: Penguin Classics. (in Azerbaijani)
5. Fromm, E. (1987). *Humanism and Marx’s concept of man*. New York: Continuum. (in English)
6. Gunay, D. (2003). *Renaissance philosophy and the concept of the human being*. Istanbul: Dergah Yayinlari. (in Turkish)
7. Hancerlioglu, O. (1976). *Dictionary of philosophy*. Istanbul: Remzi Kitabevi. (in Turkish)
8. Meric, C. (1998). *This country*. Istanbul: Iletisim Yayinlari. (in Turkish)
9. Montaigne, M. de. (2019). *Essays* (Trans. S. Eyuboglu). Istanbul: Can Yayinlari. (in Turkish)
10. Ozcan, A. (2016). *The concept of man and society in Machiavelli*. Ankara: Nobel Yayincilik. (in Turkish)
11. Shenyapili, T. (2017). *Renaissance art and the image of man*. Ankara: Kultur Yayinlari. (in Turkish)
12. Tashkin, T., & Becermen, M. (2013). *Renaissance thought and humanism*. Istanbul: Beta. (in Turkish)